## Ümumi məlumat

Dünya Bankı (ingilicə adı – World Bank) inkişaf etməkdə olan ölkələrə maliyyə və texniki yardımın göstərilməsi məqsədilə yaradılmış beynəlxalq maliyyə təşkilatıdır. 1944-cü ildə Bretton Woods konfransında yaradılmışdır və iqamətgahı Vaşinqtonda yerləşir. Əsas fəaliyyət sahələrinə kredit və qrantların verilməsi, texniki yardım və biliklərin paylaşılması, qlobal iqtisadi araşdırmalar və hesabatların hazırlanması daxildir.

Dünya Bankı Qrupuna bir-biri ilə qarşılıqlı əlaqəsi olan beş təşkilat daxildir:

- Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı
- Beynəlxalq İnkişaf Assosiasiyası
- Beynəlxalq Maliyyə Korporasiyası
- Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyi
- İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəz

Azərbaycan 1992-ci ildə Dünya Bankının üzvüdür və 1996-cı ildə Bankın Azərbaycanda yerli nümayəndəliyi açılmışdır.